**Yumorlar, lətifələr, anekdotlar!**

Dostlar! Hər kəs onları xoşlayır. Böyük də, kiçik də! Oxuyursan, eşidirsən, gülürsən, sevinirsən. Əhvalın xoş olur. Danışırsan, başqalarını da güldürürsən. Amma çox vaxt onları çətin tapırıq. Buna görə Gülzar nənə sizə gülməli yumorlar tapdı, yazdı, qoşdu, seçdi, bu kitabı sizə hazırladı. Arzu edirəm əhvalınız həmişə gümrah, kefiniz həmişə əla olsun!




Müəllif: Gülzar İbrahimova
Redaktor: Bənövşə Hacılı
Rəssam: Mərziyə Tağıyeva
Dizayner: Aynur Nurəliyeva


# Ciddi ol!



Uşaqlar üçün Gülzar nənədən yumor toplusu




MƏCBURİ NÜSXƏ
№





F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 88609

84(5Aze)
Ç 18

# Cırıq corab moda düşsəydi...



Bağçada Nərgiz özündən azca böyük Ayazdan soruşur:

- Görəsən yerin altında yaşayan var?

Ayaz özünü çox bilən göstərir:

- Əlbəttə var, olmasaydı, turp ilə kökü yerin altında necə rəngləyərdilər?



- Nə yaxşı belə arıqlamısan?
- Yeməyi yapon çubuğu ilə yeyirəm!
- Nə olsun ki?
- O olsun ki, iki yox, bir çubuqla yeyirəm!



- Sarımsaqla pəhriz saxlamağın necə oldu?
- Çəkidə 3 kilo itirdim, ətrafımdan isə bütün yoldaşlarımı!



Tapdıq:

- Cırıq şalvar moda düşdü, cırıq köynək moda düşdü, cırıq corab da moda düşsəydi, ayyaqqabılarımı hər yanda rahat çıxardardım.



Qaraçı küçədə cavan oğlanı saxlayıb deyir:

- Pul versən, gələcəyindən xəbər verərəm!
- Verə bilmərəm, qoy yolumla gedim!
- Get, amma bilməyəcəksən ki, səni qarşıda hündür, çox hündür pillələr gözləyir. Qırmızı rəngli, par-par parıldayan maşın, hamı səndən kömək istəyir.
- Düz fala baxırsan, mən yanğınsöndürənəm, amma tələsirəm, çəkil yolumdan, işə gecikirəm!



Bir rəssam çoxlu şeir yazır. Onları şair dostuna göndərir, fikrini öyrənsin. Şair şeirləri oxuyur, heç xoşuna gəlmir. Bilmir bunu necə desin ki, rəssam dostunun xətrinə dəyməsin:

- Dostum, sən rəsm çək, həmişə rəsm çək...



Bir sənətkar ölür. Yaşadığı evin qarşısından lövhə asırlar, üstünə də sənətkarın adını və xoş sözlər yazırlar. Lövhənin açılışını edəndə İcra başçısı lövhənin üstündən pərdəni götürüb "açılış" elan edir.

Mənasız yazıları ilə çoxlu kitab buraxan, özünü yazıçı adlandıran birisi də burda olur. Tədbirdən sonra o, başçıdan soruşur:

- Görəsən, mən öləndə qapımın üstündəki lövhəyə nə yazarlar?

Başçı ciddi halda:

- Ya "Ev satılır" yazarlar, ya da "Kirayə verilir".



Rəssamlıq sərgisində biri o birindən soruşur:

- Sizcə, bu mənzərədə rəssam günün doğduğunu, yoxsa batdığını göstərmək istəyib?

- Əlbəttə, günün batdığını!

- Nədən bildiniz?

- Rəssam yaxın qonşumdur. O, heç vaxt səhər durmur!



Tapdıq və Həsən söhbət edir:

- Eşidirsən hamı Aya gedir?

- Biz də Günəşə gedərik.

- Günəşə getsək yanarıq.

- Heç nə olmaz, axşam sərinində gedərik!



Viktor Hüqo cavan şairin şeirlərini oxuyur.

- Necədir, xoşunuza gəldi? - Deyə, cavan şair soruşur.

- Mənasız, məntiqsiz nə isə yazmaq istəmisən və buna nail olmusan. Təbrik edirəm!



İt ağzında bir torba ilə qəssab dükanına gəlir. Ağzındakı torbanı yerə qoyub, qəssabın qarşısında oturub gözləyir. Qəssab soruşur:

- Nə istəyirsən?

İt hürür:

- Hav!

Qəssab:

- Necə ət istəyirsən, qiymə, tikə?

İt:

- Hav, hav.

Qəssab:

- Yaxşı, nə qədər olsun? Bir kilo, iki kilo?

İt:

- Hav, hav.



Qəssab sifarişi hazırlayır. Əti torbaya qoyanda görür ki, torbada pul var. İt dükandan çıxanda, qəssab onu izləyir. Bir neçə küçədən sonra it bir mənzilə daxil olur. Üçüncü mərtəbəyə çıxır, bir qapının qabağında dayanıb, pəncəsi ilə döyür.

Qapını hirsli bir adam açır və itə qışqırmağa başlayır. İti izləyən qəssab yaxınlaşıb deyir:

- Bir dəqiqə dayan! Nə edirsən? Bu, mənim gördüyüm ən ağıllı itdir. Ona niyə qışqırırsan?

- Nəyi ağıllıdır? Bu həftə üçüncü dəfədir, açarı götürməyi yaddan çıxarır.



Tapdığa "bal və sirkə uyğunlaşmaz!" deyirlər. "Niyə uyğunlaşmır?" deyib, yarım banka bal yeyib üstündən də sirkə içir. Üzünün yamyaşıl olduğunu görənlər soruşur:

- Uyğunlaşmadı hə?

Tapdıq:

- Yox, yox uyğunlaşdılar. İndi də məni aradan qaldırmaq istəyirlər.



Böyük, mehriban it uşağın üzünü yalayır. Uşaq ağlamağa başlayanda ana qışqırır:

- Niyə ağlayırsan, it ki səni dişləmədi?

- Dadıma baxdı!

İki lovğa söhbət edir:

- Mənim itim elə ağıllıdır, qapıya çatan kimi başlayır hürməyə.

- Mənim itimin isə açarı var, qapıya çatanda açıb içəri girir.

- İtin necədir?

- Çox yaxşıdır. Məni əla başa düşür. Məktəbdən evə gələn kimi başını çantama soxur, gündəliyimi götürür, aparıb çarpayının altında gizlədir.

Bir nəfər it almaq istəyir. Satıcıdan soruşur:
- Elə bir it almaq istəyirəm ki, çox sədaqətli olsun!
- Biri var. Sizi yüz faiz əmin edə bilərəm ki, elədir.
- Necə bu qədər əmin ola bilirsiz?
- İndiyə qədər beş dəfə satmışam, hər dəfə də mağazaya geri qayıdıb.

Axsayan dilənçi bir kişidən pul dilənir. Kişi ona pul verəndə deyir:
- Halına şükr elə. Bax ayağın axsayır, amma gözlərin görür. Kor da ola bilərdin.
Dilənçi:
- Onu da sınaqdan keçirtmişəm, o işdə çox pul yoxdur.

Müəllim itlər haqda dərs danışır:
- Uşaqlar, hürən it heç vaxt dişləməz!
Dərsdən çıxanda təsadüfən bir it hürə-hürə Raufun arxasınca qaçır. Rauf qışqıraraq:
- Əli, bayaq dərsdə müəllim dediklərini təkrar elə, it də eşitsin!



- Ağılı itim, qəşəng itim, otur, otur, kimə deyirəm, otur, otur, tərpənmə, ay sağ ol, yerində qal, səssiz! Hürmə, mırıldanma, bax belə, bax belə... İndi sənə dadlı sümük verəcəm, üstündə əti də var, əlbəttə. Ləzzətlə gəmirəcəksən! Beləəə. İndi sürün. Bir iki, bir iki, afərin, əla. Bax topu atıram, qaç gətir, dişlərinlə gətir, qaç, qaç, qaç, afərin, al sənə sümük verim! Afərin! Pis deyil. Teymur, indi qalx, Toplanla məşq edəcəm!

- Qaytarın mənim pulumu, istəmirəm itinizi, qəribə itdir, bütün günü yatır. Oğru gəlsə, neyləyəcəm?
- Heç bir şey, sadəcə, iti yuxudan oyadın!



- Çox gözəl itim var, hər gün mənə qəzet gətirir!
- Bu, elə də çətin deyil. Bütün ev itləri bunu eləyə bilir!
- İş orasındadır ki, heç bir qəzetə abunə deyiləm!



Bir fermer inəklərini satmaq istəyir. Qəzetə elan verir. Axırda da qeyd edir ki, "telefonum da yoxdur, köməkçim də. İnəkləri aparmaq üçün fermaya gəlmək lazımdır!".

Səhər fermaya gəlib görür ki, inəklər oğurlanıb. Yerdə də bir kağız var. Kağızda yazılıb: "Dostum, bil ki, oğrular da qəzet oxuyur. Gördün, səndən kömək istəmədik, fermaya gəldik və inəkləri apardıq!".



Polis muzeydən qızıl oğurlayandan soruşur:
- Necə oğurladın qızılı?
Oğru xarici dildə cavab verir:
- Mən oğurlamamışam!
Tərcüməçi işləyən çukça oğrunun dediyini tərcümə edi
- Qızılı harda gizlətmisən, yerini de, yoxsa səni öldürə-rəm! - Polis hirslənir.
Oğru qorxudan hər şeyi boynuna alır:
- Muzeyin həyətində, kolun dibində!
Çukça:
- Onsuz da deməyəcəm, öldür!



Bir gün kovboy silah almağa gəlir. Satıcı soruşur:
- Sizə 6 güllәli, yoxsa 8 güllәli silah lazımdır?
- Bircə dəqiqə gözləyin: "Alo, bankdır?"
- Bəli!
- Sizdə neçə mühafizəçi çalışır?



Molla Nəsrəddinin evinə oğru girir. Molla pərdənin dalında olur. Oğru evdəki hər şeyi götürür. Molla da onun dalınca gedir.
Oğru onu görəndə soruşur:
- Sən hara gedirsən?
Molla:
- Sizə köçmürük ki?





Müstəntiq şübhəli şəxsdən soruşur:

- Bu bıçağı tanıyırsız?
- Əlbəttə tanıyıram!
- Aha, deməli tanıyırsız hə?
- Necə tanımayım, iki həftədir hər gün onu mənə göstərirsiz?!



İki sinif yoldaşı görüşür. Biri təəccüblə soruşur:

- Nə olub, niyə qoltuq ağacları ilə gəzirsən?
- Avtomobil qəzasına düşmüşəm!
- Vay, nə pis olub! İndi bu ağaclar olmasa gəzə bilməzsən?
- Nə bilim eee, anamın vəkili deyir gəzə bilməzsən, həkim deyir bilərsən. Bilmirəm hansına qulaq asım.



- Niyə evə verilən çalışmanı yazmamısan?
- Yaza bilmədim, həmişə atam başa salırdı, üç gündür atamın səsi batıb!
- Gətir gündəliyini iki yazım, atan görən kimi səsi açılacaq!



- Sizin əkiz uşaqlarınız var. Yəqin çox çətindir, hə? İkisi də birdən ağlayır.
- Yox, elə də çətin deyil, biri elə ağlayır o birinin səsi gəlmir.



Məhkəmədə hakim uşaqdan soruşur:

- Bilirsən də yalan danışdığına görə sənə nə edərlər?
- Bilirəm, söz veriblər velosiped alsınlar.



Hakimin əkiz uşaqları bir-birinə çox oxşayır. Hakimə sual verirlər:

- Onları necə ayırırsız?
- Əl izindən!





Taksi sürücüsü bir milyoneri bağdan evə aparır. Milyoner sayğacda görünən 20 manatı ödəyib düşəndə sürücü pula baxıb deyir:

- Dünən sizin oğlunuzu da bağdan gətirdim, o, mənə 50 manat verdi.



- O, milyoner oğludur, mən isə kasıb gözətçi oğluyam!



İmtahana yaxşı hazırlaşmış bir nəfər sürücülük vəsiqəsi almaq üçün imtahan verir. Soruşurlar:

- İmtahan verə bildin?
- Yox!
- Niyə?
- Dedilər "Sür!". Oturdum maşına, kəmərimi bağladım. Dedim: "Siz də təhlükəsizlik kəmərlərinizi bağlayın!". Hirsləndilər, dedilər, "Düş, çıx get, avtoşsan!".



Qəza. İki nəfər maşından düşür. Günahı olduğuna görə sürücünü döyməyə başlayırlar. Döydükcə o qışqırır:

- Axı bu toyotadır, axı bu toyotadır!

Onu əməlli başlı əzişdirirlər, o isə elə dediyini deyir. Onlardan biri hirslə qışqırır:

- Gözümüz aydın toyotadır! Nə olsun ki?
- Sükan sağdadır, sürücü o biri tərəfdə oturur!



Qəza olur. Otuz nəfər ağır yaralanır. Hakim sürücüdən soruşur:

- Danış, hadisə necə baş verdi?

Sürücü:

- Yoxuşdan aşağı düşürdüm, əyləc xarab oldu. Maşını ya sağa, ya da sola vurub dayanmalıydım. Sağ tərəfdə toyuq, sol tərəfdə isə çoxlu adam var idi. Fikirləşdim ki, sağ tərəfə sürüm, heç olmasa toyuğu vurum.

Hakim əsəbləşir:

- Bəs yaxşı, onda adamları niyə vurdun?
- Neyləyərdim? Toyuq qaçdı girdi adamların arasına!

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 88609



Müdir mobil telefonla danışa-danışa katibəsindən soruşur:

- Gülşən, milyonda neçə sıfır var?
- Altı!
- Gördün, dedim sənə, mərci mən uddum! Mən deyən kimidir! Milyonda 6 sıfır varsa, deməli 2 milyonda 12 sıfır olar!

Avtobusda bir qoca nənə oturub. Yanında bir məktəbli oğlan dayanıb. Qolundan paltosu asılıb. Nənə bir xeyli oğlana baxandan sonra soruşur:

- Dərsdən gəlirsən?
- Bəli!
- Çox arıqsan, yəqin əlaçısan!
- Əlaçı deyiləm, amma yaxşı oxuyuram!
- Durum, otur, yəqin yorğunsan!
- Oturmaq istəmirəm, sağ olun!
- Ver, paltonu saxlayım!
- O, palto deyil, sinif yoldaşımdır. Əsl əlaçı odur!

Yuxarı sinifdə oxuyan iki rəfiqə söhbət edir:

- İstərdim gələcəkdə sevgilim məni ağ cipdə gəzdirsin!
- Əsas odur ağıllı, savadlı, qabiliyyətli olsun. Cip nə rəgdə olur, olsun, fərq eləməz!



Müxbir 130 yaşlı qocadan soruşur:

- İndiyə qədər yaşamağınızın səbəbi nədir?
- Səbəbi odur ki, ölməmişəm.

Jurnalist məhşur birindən müsahibə götürür:

- Belə uğurlar qazanmaqda kimə borclusan?
- Nənəmə!
- Yəni?
- Balaca olanda həmişə məni qorxudub, deyirdi: "Oxumasan, böyüyəndə səni qoyacağıq poçtda işləyəsən. Kim, hara məktub göndərsə, dilini çıxardasan, əlini sənin dilinə batırıb konvert yapışdırsın. Poçt işi çox asandır!".





Həkim telefonla danışmağı çox xoşlayan Güllünü müayinə eləyib soruşur:

- Kim yandırıb qulaqlarını?
- Yandırmayıblar!
- Bəs necə oldu ki, ütü iki qulağını birdən yandırdı?
- Paltar ütüləyirdim, rəfiqəm zəng elədi, elə bildim əlimdəki telefondu, tutdum qulağıma!
- Yaxşı, bəs sol qulağın necə yandı?
- Həkim çağırmaq istədim, çaşıb ütünü tutdum sol qulağıma!



Telefonla bərkdən danışan qız atasına deyir:

- Ata, telefonu düzəltdirmək lazımdır, tamam eşidilmir!

Qızının xasiyyətinə yaxşı bələd olan ata sakitcə deyir:

- Bir-bir, növbə ilə danışanda yaxşı eşidilir.



- Alo, salam!
- Salam!
- Şaxta babanın evidir?
- Yox!

Bir dəqiqədən sonra yenə zəng:

- Alo, Şaxta babanın evidir?
- Dedim sənə, yox!

Üçüncü dəfə soruşanda ev sahibi hirslənir:

- Tutaq ki, Şaxta babanın evidir, sonra?
- Qar qızı olar?



- Aloo, tez gəlin, yanğın var!
- Narahat olma, bu saat sizdə olacıq. Sən de, sizə necə gələk?
- Bilmirsiz? Böyük qırmızı maşınla!



Telefon zəng çalır. Dəstəyi 5 yaşlı Səməd götürür.

- Atanı, ya da ananı telefona çağır!
- Evdə yoxdurlar!
- Onda bacını çağır.
- Bacım çox ağırdı, beşikdən çıxara bilmirəm!



# İstəyirəm qəhrəman olum!



İki dost rastlaşır. Birinin kefi çox yaxşı olur, o birininki çox pis. Kefi pis soruşur:

- Xeyir ola sevinirsən?

- Necə sevinməyim? İndi mənim də səninki kimi "Apple" planşetim olacaq.

- Hardan?

- Səhər qızıl balıq tutmuşdum, soruşdu nə istəyirəm, dedim sənin planşetindən! Dedi, "Get evə, görəcəksən hazırdır.". Sənin niyə kefin yoxdur?

- Axşam planşetim balkondan düşüb, çilik-çilik olub!



Hiyləgər məsləhət: "İstəyirsən, qızıl balıq üç yox, çox arzunu yerinə yetirsin? Onu tavaya qoy, sonra arzularını de!".



Uşaq çayda balıq tutur. Toruna arzu yerinə yetirən qızıl balıq düşür. Sevincək deyir:

- İstəyirəm, qəhrəman olam!

Bir az keçmir, uşaq özünü yanan tankın içində görür.



Teymur xəstələnir. Sinif yoldaşları ona baş çəkməyə gəlir. Yeyirlər, kinoya baxırlar, amma yenə getmirlər. Teymur bilmir neyləsin. Bu vaxt telefon zəng çalır. Teymur danışandan sonra həyəcanla qışqırır:

- Yanğın, yanğın!
- Hardadı yanğın?
- Hansınızınsa evindədi, yaxşı başa düşmədim kimin!



- Alo, salam, yanğınsöndürmə idarəsidir?
- Bəli.
- Burda polislə həkim dalaşır, bilmədim hara zəng vurum



Zəngləri ilə dostunu bezdirən:

- Hardasan?
- Cəhənnəmdə!
- Çıxanda zəng elə!



Qoca balıqçı qızıl balıq tutur. Qızıl balıq soruşur:

- Qoca, sənin qarın hələ sağdır?
- Sağdır, sağdır!
- Onda yaxşısı budur məni apar bişir ye!



Kasıb ər-arvad göl başına gəlir ki, evlənmələrinin 25 illiyini qeyd eləsinlər.

Balıq tutanda, torlarına qızıl balıq düşür. Qızıl balıq:

- Məni buraxsanız, hərənizin bir arzusunu yerinə yetirərəm!

Kişi bir xeyli fikirləşir ki, belə fürsət daha heç vaxt ələ düşməz. Yaxşısı budur, ürəyimdən keçəni deyim:

- İstəyirəm 20 yaş özümdən cavanla səyahətə gedim!

Qızıl balıq kişinin arzusunu yerinə yetirir. Kişi bir anda dəyişib olur 70 yaşlı qoca.



Ən bəxtsiz balıqçı tilovuna vurduğu qurdun 1 ildən sonra ad gününü keçirtdi.



Səməd qızıl balıq tutur. Balıq ona yalvarır:
- Məni burax, üç arzunu yerinə yetirim!
- Məktəbi imtahansız, sorğu-sualsız bitirim.
- Baş üstə! Günü sabah bitirəcəksən!
- Ən son model "BMW" maşınım olsun!
- O da hazırdı! Sürə bilərsən!
- Şəxsi evim olmasını istəyirəm!
- Bu saat!

Bunların üçü də hazır olan kimi Səməd deyir:
- İndi keçirəm ikinci arzuya...

İlk dəfə divanı icad edən dizayner daha sonra heç nə icad etməyib.





Müəllim:
- Çox balıq yesən nə olar?

Şagird:
- Gözlərim yaxşı görər.

Müəllim:
- Bəs yeməsən?

Şagird:
- Onda balıqlar yaxşı görər!

Tapdıq qızıl balıq tutur. Balıqdan arzularını yerinə yetirməyi xahiş edir. O qədər arzu sayır, balığın bağrı çatlayıb ölür.



- Bir zənci özünə qara mersedes alır.

Dostlarına zəng edir, sevincini onlarla bölüşsün. Soruşurlar:

- Maşının nə rəngdədir?
- Dəri rəngində!



- Dişlərin sənə ağ görünmür? Elə isə güzgünün qarşısında dur və üzünə kömür sürt!



Obama bir gün falçısından soruşur:

- De görək, on ildən sonra bizi nə gözləyir?
- Rusiya ilə müharibə!
- Elə də maraqlı olmadı. Bəs iyirmi ildən sonra Nyu-Yorkda hot-doq neçəyə olacaq?
- 15 rubl.



Səhra ilə üç zənci və bir ağdərili gedir. Qarşılarına cin çıxır. Zəncilərin üçü də cindən dərilərini ağartmağı xahiş edir. Axırda cin ağdərilidən soruşur:

- Sən nə arzu edirsən?

O gülmək üçün deyir:

- Onları təzədən qaralt!

Cin hamını təzədən qaraldır. Amma heç kim gülmür.



Bir gün Əli ilə Vəli Amerikaya gedir. Oteldə yanğın başlayır. Əli uşaqları pəncərədən atır ki, Vəli aşağıda tutsun. Birini atır, ikincisini atır... Üçüncü uşaq zənci olur. Vəli aşağıdan qışqırır:

- Yanmışları atma!



Balıqçı Nil çayında balıq tutur. Bir saat oturur, iki saat oturur, tilova balıq düşmür. Timsah isə o tərəfə üzür, bu tərəfə üzür, nəhayət dil açıb insan kimi danışır:

- Yaman istidir!
- Düzdür, yaman istidir! - Balıqçı cavab verir.
- Balıq da yoxdur!
- Yoxdur! - deyə balıqçı onun sözünü təsdiqləyir.
- Bəlkə soyunub bir az üzəsən?



- Əmək haqqının 2 dəfə artırılmasını arzu edənlər! Pulunuzu aynanın qarşısında saxlayın!

Balaca Səlim ilk dəfə balıq ovuna gedir. Elə birinci dəfədən qızıl balıq tutur. Arzusunu deyir:

- İstəyirəm, hər gün ad günüm olsun!

Qızıl balıq oğlanın arzusunu yerinə yetirir.

İki aydan sonra Səlim güzgüyə baxıb görür ki, qocalıb.





İki dost ad gününə gedir. Onlardan biri:

- Ad günün mübarək! Arzu edirəm həmişə belə qalasan!

- Niyə ona qarğış edirsən? - Dostu yavaşca deyir.



- Ad günündə hədiyyəni heç vaxt qonaqların yanında açma! Sonradan onların heç birinə verə bilməzsən.

Oğlan qızdan soruşur:

- Kimsən?
- Yatmış gözəl!
- Bəs niyə belə çirkinsən?
- Yuxudan indi durmuşam!

Balaca Əli:

- Zərnigar xala, niyə bütün günü bəzənirsən?
- Gözəl olmaq üçün!
- Bəs neçə ildən sonra gözəl olacaqsan?

Əlәddin hәr yerdә çıraq axtarırdı. Fikirlәşirdi, bәlkә bir gün bәxti açıla, "Sehrli çıraq" tapa. Nәhayәt, Əlәddin arzusuna çatdı. Parkda ağacların altından bir çıraq tapdı. Onun palçığını sildi, tәmizlәdi, lampadan cin-zad çıxmadı. Çoxlu silәndәn sonra, gördü üstündә yazılıb: "Made in China".






Pis oxuyan şagird lampa tapır. Tozunu silәndә içindәn Cin çıxıb soruşur:

- Nә istәyirsәn?

- İstәyirәm burdan Eyfel qüllәsinin başına bir körpü salasan, xizәklә sürüşüm düşüm ora!

- Nә danışırsan, bu, mümkün olan şey deyil! O qәdәr beton tapmaq olar? Üstәlik elә bir hündürlüyә beton qaldıran kran yoxdur. Onlar düzәldilmәlidir. Layihә çәkilmәlidir. Hәlә nә qәdәr fәhlә lazımdır! O qәdәr fәhlәni hardan tapım? Harda yedirdim? Harda yatırdım? Yaxşısı budur, başqa şey istә!

- Onda elә et ki, bütün günü televizora baxım, amma dәrslәrimdә әlaçı olum.

Cin bir xeyli başını qaşıyır. Fikirlәşir, fikirlәşir, axırda soruşur:

- Körpünün eni nә qәdәr olsun?



Bir nәfәr meşәdәn qәdimi şüşә tapır. Şüşәnin tozunu silәndә içәrisindәn cin çıxıb soruşur:

- Ey mәnim sahibim, nә arzu edirsәn et, yerinә-yetirim!

- İkimәrtәbәli ev istәyirәm, hәyәtindә hovuzu...!

Cin onun sözünü kәsir:

- Arzunu deyәndә fikirlәş dә, görmürsәn özüm darısqal şüşәdә yaşayıram?!



Bir gün bir uşaq dәniz sahilindә gәzәndә lampa görür vә lampaya tәpik vurur. Onun içindәn bir Cin çıxıb deyir:

- Mәni, neçә ildir mәhrum olduğum azadlığa çıxardın. İndi mәndәn nә istәyirsәn, de!

- Üzr istәyirәm... Üzr istәyirәm!



Küpəgirən, Div və Əjdaha dərsdən gəlir.
Küpəgirən:
- Mən bu gün dörd almışam.
Div:
- Mən beş almışam.
Əjdaha:
- Mən isə altı almışam!!!
- Necə?
- Başlarımın hərəsi bir iki alıb...

Bir gün Məlikməmməd susayır və bir quyu tapıb sevinir. Quyunun yanında üçbaşlı əjdaha olur. Məlikməmməd tez qılıncı çıxarıb, əjdahanı yıxır yerə, üç başının üçünü də birdən kəsmək istəyəndə Əjdaha dil açıb soruşur:
- Məlikməmməd, nə istəyirsən?
- Su istəyirəm.
- Su istəyirsən iç də, daha başımı niyə kəsirsən?

- Ad gününə hədiyyə aparmalıyam səncə bir böyük hədiyyə aparsam yaxşıdır, yoxsa çoxlu balaca?
- İmkan varsa, çoxlu apar!
- Onda semiçka apararam!



Sultan Səlim bir çox Osmanlı padşahı kimi səfərə çıxacağı yeri gizli saxlayarmış. Bir dəfə vəzirlərdən biri səfər ediləcək ölkəni soruşanda Səlim:
- Sən sirr saxlamağı bilirsən?
- Əlbəttə bilirəm!
- Afərin, mən də bilirəm.

Div dəllək işləyir. Üçbaşlı əjdaha dəlləyə gəlib deyir:
- Saçlarımı düzəlt, sağ tərəfdəki başımı da kəs!
- Niyə?
- Futbol olanda dava düşür. Biri "Qalatasaray"a azarkeşlik edir, ikisi "Beşiktaş"a, bezmişəm!



Bir hindu pasport idarəsinə gəlir:
- Adımı dəyişdirmək istəyirəm.
- Adınız nədir ki?
- Tüstüverən, guruldayan, dünyanı gəzən at.
- Aydındır... Bəs yeni adınızın nə olmasını istəyirsiz?
- Paravoz.



Baş nazir:

- Təkliflər qəbul edildi. Hörmətli nazirlər, iqtisadiyyatın güclәndirilməsi üçün daha hansı təkliflər olacaq?

1-ci çıxışçı:

- Yaxşı olardı ki, çinlilərdən çoxlu saat alaq. Sonra zaman maşını ilə 20 il bundan əvvələ gedib onları sataq.

2-ci çıxışçı:

- Məncə dollar alaq, 20 il əvvəlki kursa dəyişək.

3-cü çıxışçı:

- Hamısından yaxşısı, bir kserokopiya aparatı icad edək onunla qızıl kopyalayaq.



- Mənə 276 taxtabiti, 524 tarakan, 18 siçan və 5 siçovul verin.
- Neyləyəcəksiniz onları?
- Məni evdən çıxarırlar, deyirlər ki, "evi nə vəziyyətdə almışdınsa, o vəziyyətdə də qoy!".



Bir gün Tapdıq, bir amerikalı və bir fransız kimsəsiz bir adaya düşür. Uzun müddət orada yaşam mübarizəsi aparırlar. Günlərin bir günü dənizdən su pərisi çıxır və deyir:

- Hərəniz bir arzunuzu deyin, reallaşdırım.

Amerikalı:

- Məni vətənimə göndər.

Fransız:

- Məni vətənimə göndər.

Su pərisi hər ikisinin arzusunu yerinə yetirib, Tapdıqdan soruşur. Tapdıq:

- Mənə görə bura yaxşıdır, amma tək darıxaram, gedənləri geri qaytar!



Dörd yaşlı Seymur pul ilə oynayır.

Babası Seymura baxıb deyir:

- Belə getsə bankda işləyəcəksən, pulla oynamağı xoşlayırsan!
- Yox, baba, bankaya yerləşmərəm!

- Siz idiz dünən oğlumu dənizdə xilas edən?
- Bəli!
- Gözündə su eynəyi vardı, onu görməmisiz?

- Səhərdən pişiyi çimdirirsən, yazıq haldan düşüb.
- Heç nə olmaz! Qoy, təmiz olsun!

İki gün sonra:
- Niyə ağlayırsan?
- Pişiyim öldü.
- Ölər də, onu o qədər tez-tez çimdirirdin ki!
- Çimdirməkdən ölmədi e.. Sıxanda öldü.

İngilis, fransız, azərbaycanlı kosmosa uçur. Orda adamyeyənlərə rast gəlirlər. Adamyeyənlərin başçısı ingilisə baxan kimi xoşu gəlir:

- Çox təmizkara oxşayır, onu axşam yeməyinə bişirin!

Fransızı bəyənməyib deyirlər:

- Çox arıqdır, yedirdin, bir az kökəlsin, səhər yeməyinə qalsın!

Azərbaycanlı ilə tanış çıxırlar:

- Bu, bizə ədəb-ərkandan mühazirə oxuyan professordur, buraxın getsin!





Sərnişin gəmisi adanın yanından keçir. Sərnişinlər adada uzunsaç-saqqallı, üst-başı cırıq, arıq adam görür. O, sahildə ora-bura qaçır, əllərini yellədir, atılıb-düşür. Sərnişinlərdən biri kapitandan soruşur:

- Kimdir o? Nə deyir elə?
- Bilmirəm, 20 ildir burdan keçirəm, hər dəfə biz burdan keçəndə belə qəribə hərəkətlər edir.



Qız, oğlan evcik düzəldib "həkim-həkim" oynayırlar. Ana işdən gəlir, qızını görəndə az qalır dəli olsun. Oğlanın atasına zəng edir:

- Oğlunuz tərbiyə görməyib!

Ata:

- Sakit olun, uşaqların hər şeylə maraqlanan yaşlarıdır.

Qızın anası qışqırır:

- Necə sakit olum? "Həkim-həkim" oynayıblar, oğlunuz qızımın apendisitini kəsib!



- Mənə çoxlu qarın ağrıması üçün dərman verin!
- Qarın ağrısını kəsən?
- Yox qarını ağrıdan!
- Niyə bəs çox verim?
- Yataqxanada üzgüçülük yarışı keçiriləcək!



- Həkim, indi eşitdim ki, mənim apendisitimi 4-cü kurs tələbəsi kəsəcək!
- Bəli elədir!
- Olmaz! Professor, bir səhv eləsə neyləyəcəksiz?
- Qiymətini yazmayacağıq, sürünə-sürünə qalacaq!



Su motosikli kirayə verən stansiyada rəis səsgücləndirici ilə qışqırır:

- 99, sahilə qayıt, vaxtın bitib!

5 dəqiqədən sonra yenə qışqırır:

- 99! Təcili sahilə çıxmasan, səni cərimə edəcəyik!

Bu, bir neçə dəfə təkrar olunandan sonra rəis köməkçini çağırıb deyir:

- 99-a cərimə yazın, ödəməsə, polisə xəbər eləyin!
- Rəis, bizim cəmi 75 su motosiklimiz var, 99 hardan gəlib?

Bir anlıq susan rəis səsgücləndiricini ağzına tutub təzədən qışqırır:

- 66, təcili sahilə çıx!



# Yeni il gəldi, uraaaa...



- Ağıllı bala olsan, Şaxta baba sənə xarici maşın hədiyyə gətirəcək!
- Uraaaa, mənim iki xarici maşınım olacaq!
- İki niyə?
- Birini də divanın altından tapmışam!



Uşaqlar söhbət eləyir:
- Mənim atam Şaxta babadan qorxur.
- Niyə elə fikirləşirsən?
- Hər il Şaxta baba gələndə atam gizlənir, onu tapa bilmirəm.



- Əziz, Şaxta baba, hədiyyəyə görə çox sağ ol, əziyyət çəkmisən!
- Dəyməz, boş şeydir.
- Mən də fikirləşdim boş şeydir, anam məcbur göndərdi ki, "Sağ ol" de.

- Şaxta baba, mənə uçan boşqab hədiyyə gətirərsən!

Ana:
- Niyə qışqırırsan? Şaxta baba hamını yaxşı eşidir!
- Onu bilirəm, amma atam eşitməz, deyə qışqırıram!



- Ana, gəl, Yeni ilə yarım saat qalmış qışqıraq: "Yeni il gəldi, uraaaa..."
- Nəyə görə tez qışqıraq?
- Qonşu uşaqlar elə bilsin, Yeni il bizə onlardan tez gəlib!

Texnikumda oxuyan tələbələrə yolka bileti verirlər ki, hərə öz məhəlləsindəki uşaqlara satsın. Fərsiz Dursun ha- mıdan tez satıb qurtarır. Məəttəl qalıb ondan soruşurlar:

- Bütün biletləri necə sata bildin?
- Elə bir həyətdən bütün biletləri aldılar!
- Bu, necə oldu?
- Bir nəfərin iti məni dişlədi, səsimi çıxartmayım deyə, bütün biletləri aldı.

Bir kasıb uşaq Şaxta babaya məktub yazıb poçtla göndərir: "Soyuqda, şaxtada ayaqqabıya, köynəyə, şalvara, paltoya, əlcəyə ehtiyacım var!".

Üstündə ünvan olmadığından poçtda işləyənlər məktubun içərisini oxuyurlar ki, bəlkə içərisində ola.

Məktubu oxuyanda kövrəlirlər. Bilmirlər bu uşağa necə yardım etsinlər. Uşağın istədiyi paltarları alırlar, bircə əlcək yaddan çıxır. Hədiyyələr uşağa çatanda, uşaq çox sevinir. Yenidən məktub yazır: "Şaxta baba, hədiyyələrə görə çox sağ ol! Amma deyəsən, poçt işçiləri əlcəyi oğurlayıb".





Ata-oğul yolka bəzəyir. Oğul:

- Ata, niyə konfetləri çox yuxarıdan asırsan?
- Bayrama qədər yeməyəsən deyə.
- Bayrama qədər oyuncaqla zər yeyim?

Əsgərliyə gedən oğlana paltar verirlər. O, yanındakına deyir:

- Bu Şaxta baba hər şeyi gec gətirir. On beş il bundan qabaq əsgər forması istəmişəm, indi gətirib çıxarıb. İndi motosiklet istəyirəm, yəqin, saçlarım ağaranda göndərəcək!

Uşaq bağçadan üzü-gözü cızılmış gəlir. Ana səbəbini soruşur.

- Tərbiyəçi bizə yolkanın ətrafında fırlanaraq mahnı oxuturdu. - Uşaq deyir.
- Bəs üzün niyə cızılıb?
- Yolka çox böyük idi, uşaq isə az.

# Yanlışlıq olub



Otuz ilin qoca müəllimi ölür, səhvən cəhənnəmə düşür. Bir müddətdən sonra səhvi başa düşüb müəllimi cənnətə göndərmək istəyirlər:

- Bağışlayın, müəllim, yanlışlıq olub, sizi cənnətə göndərməliyik!

- Yox, heç yerə gedən deyiləm, yerim lap yaxşıdır!

- Ana, heç istəmirəm müharibə olsun!

- Ağıllı balam, deməli sən sülh tərəfdarısan!

- Həm ona görə, həm də çox müharibə olanda tarix kitabları qalınlaşır.



Müəllim:

- Sizə söz ehtiyatınızı çoxaltmağın sirrini açım. İstənilən sözü 10 dəfə təkrarla, olacaq sənin!

Bu vaxt arxa partadan səs gəlir:

- Şokoladlı dondurma, şokoladlı dondurma, şokoladlı dondurma...

- Əli, yenə qlobusun tozunu yaxşı təmizləməmisən!

- Mən bütün dünyanın tozunu bir dəfəyə ala bilmərəm!

Ana:

- Qızım, bu, necə kitab oxumaqdır? Səhifələri niyə oxumamış keçirsən?

- Kitab oğrulardandı. Onları tez tutmaq istəyirəm.



Pis oxuyan bir uşağın atası müəllimin qarşısını kəsir, ona bahalı hədiyyələr təklif edir ki, uşağa "2" yazmasın.
Müəllim:
- Mənə yaxşılıq eləmək istəyirsinizsə, heç yerdə deməyin, oğlunuza mən dərs deyirəm!

Pis oxuyan, həmişə pis qiymətlər alan bir oğlan tənəffüsdə bərkdən danışıb müəlliminə eşitdirir:
- Atam deyir qiymətlərin pis olsa, heç bir müəllimə fransız ətri görməyəcək!

- Xanım, təyyarəyə minik başlayır, amma sizin anketdə səhv var, onu düzəldin! Burda yazılıb bir nəfərsiz, amma yanınızda dörd uşaq var.
- Onlar məgər adamdı? Bayaqdan özlərini necə aparmaqlarını görə-görə hələ də onlara adam deyirsiz?!

Bir kəndli təyyarə ilə Gəncədən Bakıya gəlir. Təyyarədə baqajı yoxlayanda görürlər çamadanında yekə qoyun var, soruşurlar:
- Qoyunu hara aparırsan?
- Bu, qoyun deyil. Qoyun mənim oğlumdur, texnikumda oxuyur, onun müəlliminə aparıram.



- Rasim, ümidvaram ki, inşa yazını köçürməyini görməyəcəm.
- Mən də, müəllim!

Sinfə təzə uşaq gəlir. Birdən bir qadın içəri girib qışqırır:
- Tez oturun, mobil telefonlar və əllər stol üstünə!
Təzə şagird qorxa-qorxa yanındakından soruşur:
- Bu nədir belə, qarətdir?
- Yox, inşa yazırıq!
İkinci dərs sinfə bir kişi girib qışqırır:
- Əllər yuxarı və başın arxasına! Ayaqları azca aralayıb, bu vəziyyətdə tərpənmədən dayanın!
- Bu, yüz faiz qarətdir!
- Yox, bu da idman dərsidir!



İki rəsm müəlliminin hərəsi öz şagirdini tərifləyir:

- Mənim bir şagirdim var, milçəyi elə canlı çəkmişdi, baxdım, baxdım, sonra qovdum, qovdum, uçmadı. Axır, başa düşdüm ki, şəkildi.

- Mənim şagirdim bir timsah çəkmişdi, otağa girəndə elə bildim məni udacaq. Qorxudan qapıya dəydim, sən demə, qapı bildiyim də şəkilmiş.



Müəllimə Həsənə:

- Elə cümlə işlət ki, içində bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar günləri sözləri olsun.

Həsən:

- Atam ovda elə böyük quş ovlamışdı ki, biz onu bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar günləri yedik.



- Ata, səni məktəbə çağırırlar!
- Niyə?
- Məktəbin pəncərəsini sındırmışam!

O biri gün:

- Səni yenə məktəbə çağırırlar!
- İndi neyləmisən?
- Kimya laboratoriyasını partlatmışam!
- Bəsdir də, bezdim, daha heç yerə gedən deyiləm!
- Düz eləyirsən, ata, xarabalıqda nə işin var?



- Ata, səni yenə məktəbə çağırırlar! Mən məktəbin pəncərəsini sındırmışam!
- Aman Allah! Bu məktəbin nə qədər pəncərəsi var?! Məktəb deyil eee, elə bir parnikdir!



Ata:

- Qonşu uşağı sənə daş atanda mənə niyə deməmisən?
- Sən atdığın daş heç qaraja gedib çatmazdı. Özüm hamıdan yaxşı atıram.



- Oğlum, niyə coğrafiyadan başqa bütün dərslərdən iki almısan?
- Ata, bilirsən, hələ mənim coğrafiyadan dərs danışmağa qaldırmayıblar...



Məktəbin müdiri şagirdin üstünə qışqırır:
- De görüm, qonşu sinifdəki oğlanı niyə döymüsən?
- Qartopu oynayanda mənə "gərgədan" dedi.
- Necə? İndi ki, payızdır, qar var?
- Qışda demişdi.
- Nə? Altı ay bundan əvvəl deyib, niyə indi döyürsən?
- Çünki gərgədanın şəklini ilk dəfə, dünən görmüşəm.



- Əlifbanı əzbər bilirsən?
- Bilirəm!
- "A" hərfindən sonra nə gəlir?
- O biri hərflər.



İki səfeh uşaq bomba tapıb içərisini açır. Bir əsgər bunu görüb qışqırır:
- Neyləyirsiz, o bombadır, partlayacaq?!

Uşaqlar bir ağızdan:
- Eybi yox, bizdə biri də var!



- Həmişə dərsdən qaşqabaqlı gəlirsən, bu gün nədənsə kefin yaxşıdır, deyəsən evə az tapşırıq veriblər!
- Heç verməyiblər!
- Nə əcəb?
- Kimya dərsində bomba düzəltmişdik! Elə maraqlı dərs oldu ki...
- Nə oldu?
- Bomba partladı, müəllim çatdırmadı evə dərs versin!





Zoologiya dərsində:
- Kirpilər nə yeyir?

Uşaqlar xorla:
- Kaktus!



İmtahandan sonra:
- İmtahan verdin?
- Məncə verdim...
- Nə soruşdular?
- Bilmirəm, hər şeyi ingiliscə soruşurdular.

- Yenə nəyə görə müəllimə səndən şikayət edir?
- İnanma, ana, o, düz danışmır. Bilmirəm necə olur ki, yalan danışan müəlliməyə uşaq tərbiyə etməyi etibar edirlər? Mən heç bu gün dərsdə olmamışam.

İngilis dili müəllimi uşaqlardan tələb edir ki, bu gün etdiklərini ingiliscə danışsınlar. Cavid:
- Səhər durdum, idman elədim, dişlərimi yudum, məktəbə gəldim!
- Otur, səhv danışdın, "2" alırsan!
- Nəyə görə, müəllim?
- Paltarsız məktəbə gəldiyinə görə!



Bir müəllimin qulağı yaxşı eşitmir. Pis oxuyan Tapdığı dərs danışmağa çağırır. Uşaqlar ona deyir:
- Onsuz da qulağı eşitmir. Çıx ora, "Meymun ağaca çıxdı" de, sonra da neçə dəfə təkrar elə.

Tapdıq lövhəyə çıxıb yoldaşları öyrədəni deyir:
- Meymun ağaca çıxdı, meymun ağaca çıxdı.

Birdən müəllim başını qaldırıb deyir:
- Keç otur, bala, meymun ağacdan düşəndə deyərsən.

- Kim dərsi danışmağa birinci çıxsa, onun qiymətini bir bal artıq verəcəm.

Kənan:
- Mən gəlirəm, müəllimə, bu başdan "3"ümü yazın.



Müəllim lövhəyə “15,25” yazıb soruşur:
- 15 və 25 -in arasından vergülü silsək, nə olar, Əli?
- Vergül silgidə qalar!

Uşaq şikayətlənir:
- Müəllim, axı mən iki almağa layiq deyiləm!
- Bilirəm, amma təəssüf ki, ondan aşağı qiymət yoxdur.

- Direktor sözünü geri götürməsə, məktəbi atmalı olacam!
- Hansı sözünü?
- Deyib, “Çıx get məktəbdən!”.





Müəllim nə qədər çalışsa da, Əliyə 100-ə qədər saymağı öyrədə bilmir. Ona belə tapşırıq verir:
- Dəftərinə 100 dəfə “Mən saymağı bilmirəm”, yazacaqsan!
Müəllim dəftəri yoxlayanda görür Əli həmin cümləni 40 dəfə yazıb, soruşur:
- Niyə 100 dəfə yazmamısan?
- 40 -dan sonra saya bilmirəm, axı!

Müəllim 2 uşağa cəza verir:
- Hərə öz adını 50 dəfə yazsın.
Onlardan biri:
- Bu haqsızlıqdır!
- Niyə ki?
- Onun adı Əlidir, mənimki isə Məhəmməd.

2-ci sinifdə oxuyan Səməd “g” əvəzinə “c” deyirdi. Müəllimə hirslənib ona tapşırıq verir:
- Hamı evə gedəndən sonra, qalıb 50 dəfə “getdim” yazacaqsan!
Səməd müəllimənin dediklərini eləyir. Sonra isə məktub yazıb qoyur: “Müəllimə, dediyinizi edib 50 dəfə “getdim” yazdım. Sonra cetdim.”

- Görürsən, Əhməd bir il gec getdi məktəbə, amma hərfləri səndən yaxşı bilir. Sərbəst oxuyur.

- Narahat olma, ana, onun başına elə oyun açaram, bildiyi yadından çıxar.

Qapıçı məktəbə hər gün hamıdan əvvəl gələn oğlanın adını öyrənmək istəyir. Oğlan fəxrlə:

- Adım babamın adıdır!
- Babanın adı nədir?
- Hər ikimizin adı eynidir.
- Bəs səni necə çağırırlar?
- Məni heç vaxt çağırmırlar. Özüm hamıdan əvvəl gəlirəm!

- Oğlunuz tənəffüsdə uşaqları raqatka ilə vururdu!
- Yaramaz uşaq. Ona təzəlikcə tapança almışdım. Yəqin yenə itirib.

Bir aydır məktəbə getməyən Nərmin dərsə əli-ayağı gipsdə gəlir.

Müəllim:

- Nə olub sənə?
- Tozsoranı söndürəndə əlimi tok vurub!
- Bəs ayağına nə olub?
- Ayağımla da mən tozsoranı vurdum!



Birinci sinfə təzə gedən uşaq:

- Ana, müəlliməmiz heç nə bilmir.
- Nə danışırsan, oğlum?! Elə şey olar?
- Bilsəydi, hər şeyi bizdən soruşmazdı.

Ev sahibi qaranlıqda qonaqdan soruşur:

- Pilləkənə işıq tutum?
- Yox, daha ehtiyac yoxdur. Pilləkənın altına düşdüm!

Rasim dərsə bir saat gecikir. Üzü cızılıb, eynəyi sınıb.

Müəllim:

- Nə olub, niyə bu qədər gecikirsən?
- Gələndə pilləkənin ikinci mərtəbəsindən yıxıldım, ona görə gecikdim.
- Bu, bir saat davam elədi?



Tapdıq dərsə qulaq asmır. Müəllim bunu başa düşüb hirslənir:

- Niyə dərsə qulaq asmırsan? De görüm, axırıncı sözüm nə oldu?

- Axırıncı sözünüz: "Niyə dərsə qulaq asmırsan, de görüm, axırıncı sözüm nə oldu?".



Teymur Seymura sataşmaq üçün o oturan partaya rəng tökür.

Seymur sinfə girən kimi soruşur:

- Bax gör, bu şalvar mənə yaraşır?

- Otur, baxım, deyim!

Seymur oturan kimi altında yaş hiss edib dik atılır.

Baxır altı bütün rəngdir, pərt olur.

Teymur qəhqəhə çəkib gülür. Gülüb qurtarandan sonra soruşur:

- Bayaq nə demək istəyirdin?

- Demək istəyirdim, dünən idman dərsindən sonra sənin cins şalvarın zalda qalmışdı. Bu gün onu geyindim ki, baxasız mənə cins şalvar yaraşır?







Riyaziyyat dərsində:

- Əgər siz qəssaba 40 manat, çörək satana 15 manat, baqqala 100 manat verməlisinizsə, borcunuz nə qədər olur, Rəşad?

- Bilmirəm. Belə hallarda biz başqa yerə köçürük.



Müəllim şagirddən soruşur:

- Ad günün nə vaxtdır?

- Oktyabrın 13-ü.

- Hansı ilin?

- Hər ilin.



Müəllim:

- De görək, Nadir şahı kim öldürüb?

Tural:

- Mən satqın deyiləm, deyə bilmərəm!



- Elnur, deyək ki, sənin 10 manatın var və sən atandan yenə 10 manat istəyirsən. Nəticədə neçə manatın olacaq?

- 10 manatım.

- Eh, Elnur, sənin hesabdan xəbərin yoxdur.

- Eh, müəllimə, sizin isə mənim atamdan xəbəriniz yoxdur.

# Olacaqsan dirijor!



Tapdığı musiqiyə gətirirlər ki, pianoya yazdırsınlar. Musiqi müəllimi piano çalıb ondan soruşur:

- "Do"-dan sonra nə gəlir?
- "Nuz"!



- Ata, baax, skripka düzəltdim! - Uşaq öyünür.
- Nə yaxşı, mənim necə ağıllı və bacarıqlı oğlum var! Bəs simi hardan tapdın?
- Pianodan çıxartdım!



Orkestrdə zərb aləti çalan məşq zamanı çox səhv edir. Dirijor hirslənir:

- Bir də səhv eləsən, sənə iki çubuq verib göndərəcəm balaban çalmağa!

Yanındakı yoldaşı da ona yavaşca sataşır:

- Bir dəfə də səhv eləsən, çubuğunun birini alacaq, olacaqsan dirijor!



- Günahkar, boynuna alırsan ki, qonşunun evindən skripkanı sən oğurlamısan?
- Boynuma alıram!
- Niyə oğurlamısan? Mənə məlumdur ki, sən skripkada çala bilmirsən!
- Guya skripka sahibi çala bilir? Amma hər gecə çalıb bütün qonşuların zəhləsini tökür.



İki direktor söhbət edir:

- Məktəbimin uşaqları yaman çoxbilmişdilər. Biri əmək müəllimini necə başa salıbsa, müəllim daha işini bəyənməyib gedib özünə təzə iş tapdı.

- Mənim uşaqlarımı demirsən! Riyaziyyat müəlliminin şəklini yapışdırıblar başqasının sənədlərinə, 50 yaşlı müəllimi əsgər apardılar.

İki müəllim söhbət edir:

- Mən sinifdə bir uşağa əla qiymət yazsam, həmişə mənim canıma dua edər.

- Mən isə bir uşağa yaxşı qiymət versəm, mənə duaçı olar.

Direktor müəllimlərin söhbətini eşidib deyir:

- İkinizi də məktəbdən qovsam, uşaqlar həmişə mənim canıma dua edər.

Tapdıq dərsə gecikir.

- Dərsə bu qədər gecikmək olar? - Müəllim hirslənir.

- Əslində mən gecikməmişəm, zəng məndən əvvəl vurulub.



Bir sinfin uşaqları həmişə dərsdə elə səs salardılar ki, qonşu siniflər dərs keçə bilməzdi. Bir gün həmin sinfə təzə müəllim gəlir. Direktor ona deyir:

- Bu sinifdə sakitlik yarada bilsən, sənə ikiqat artıq əmək haqqı verəcəm!

Səhər direktor görür sinifdən səs gəlmir. Təəccüblə həmin sinfə girir. Görür hamının başı semiçka (günəbaxan tumu) çırtlamağa qarışıb.



Səhər durdum, beynimdən qaçmaq, sonra soyuq suda yuyunmaq, dərsə piyada gəlmək keçdi.

- O boyda yolu piyada gəlmisən?

- Yox! Beynimdən keçdi, amma ürəyim etiraz elədi. Gərək ürəklə beyin bir olsun ki, istədiyin həyata keçsin.



- Əli, deyə bilərsən, Yer hansı formadadır?

- Dairə formasında!

- Nə bilirsən?

- Dəqiq deyə bilmərəm, özüm də ondan-bundan eşitmişəm, kvadrat da ola bilər!



Müəllim şagirdlərdən birinə deyir:

- Fərhad, de görüm, Yer kürəsində sulu ərazi çoxdur, yoxsa torpaq?

- Torpaq.

- Düz demədin, sulu ərazi çoxdur!

- Niyə ki, müəllim? Göllərin, dənizlərin və okeanların altı da torpaqdır axı...



Coğrafiya müəlliminin ayağı burxulur, həkimə gəlir.

- Ayağınızın harası ağrıyır? - Həkim soruşur.

- Sağ dabanımdan bir az şimal-qərb tərəf.



Tural:

- Müəllim, dünyanın ağırlığı nə qədərdir?

- Cavabını bilmirəm. Axşam internetdən araşdırıb səhər sənə deyərəm.

Axşam müəllim məlumatı araşdırır, səhər dərsdə izah edir. Tural:

- Bəs, müəllim, buna insanların da ağırlığı daxildir? - Deyəndə müəllim iki əli ilə başını tutur.



Bir gündə bir neçə dəfə iki alan Həmid bilmir neyləsin ki, bu dəfə pis qiymət almasın:

- Kəmalə müəllimə! Vaxt gələcək, mən elə bir vəzifədə işləyəcəm, siz mənə iki yazdığınıza görə xəcalət çəkəcəksiz!

- Təki sən vəzifə tut, onda deyərəm: "Cənab nazir, o vaxtkı səhvimə görə sizdən üzr istəyirəm!".



Uşaqlar rəsm muzeyindədirlər. "Çəkməli pişik" rəsminə baxan soruşur:

- Şəklin adı "Çəkməli pişik" dir, amma pişik yoxdur.

Əli:

- O, yəqin çəkmənin içindədir.



Müəllim:

- Uşaqlar, öyrəndik ki, lampanı Edisson kəşf edib. İndi sizə bir sualım var. Edisson olmasaydı, onda biz nə edərdik?

- Heç nə, müəllim! Televizora ya qaranlıqda, ya da şam işığında baxardıq.





- Sən neylədin? İki yüz yaşı olan gül qabımı sındırdın!

- Aaa köhnə imiş ki!... Mən də qorxdum, elə bildim təzədi!



Direktor soruşur:

- Uşaqlar, yəqin ki, muzeydə yaddaşınızda qalan şeylər oldu?

- Oldu, oldu.

- Nə oldu?

- Muzeyin direktorunun pilləkənlərdən yumbalanması.



Əliş neçənci dəfədir, imtahan verib pis qiymət alır. Son dəfə imtahandan gələndə ana həyəcanla soruşur:

- Nə oldu, imtahan verə bildin?

Ata da eyni sualı verəndə Əliş deyir:

- Sakit olun, dünya dağılmayıb ki... Hər şeydən vacib can sağlığıdır.



- Nə oldu, imtahan verə bildin?

- Nə bilim, nə deyirdim, müəllim elə bil molla idi, elə hey deyirdi, "Allah sən saxla!".



Məmməd imtahan verir. Bilet çəkən kimi onu tez yerə atıb, iki əllə üzünü tutur. Müəllim soruşur:

- Nə oldu?

- 13 -cü bilet düşdü, müəllim, mən əlamətlərə çox inanıram, "13" heç vaxt mənə düşmür!

Müəllim hirslə 13-cü bileti axtarıb tapır və şagirdə verib deyir:

- Oyun çıxartma, bileti dəyişsən, qiymətin aşağı düşəcək!

Məmməd imtahandan əla qiymət alır. Uşaqlar təəccüblə soruşurlar:

- Oxuyan deyilsən, nə əcəb "əla" aldın?

- Təkcə 13-cü biletə hazırlaşmışdım!



- Anatomiyadan imtahan verirdik, imtahanın ortasında müəllim Səmədi bayıra saldı.

- Niyə?

- Şparqalkadan istifadə elədiyinə görə!

- Köçürdəndə gördü?

- Yox, qabırğalarını sayırdı.



İmtahanda müəllim şagirdə parametrdən sual verir.

- Onu keçməmişik, müəllim!

- Dur get, "5" alırsan!

- Heç nə danışmadım axı...

- Sən ki bilirsən nəyi keçmişik nəyi keçməmişik, deməli əla öyrənmisən!



- Bizim müəllim elə qışqırır, qorxudan tir-tir əsirik.
- Bizimki heç vaxt qışqırmaz, heç səsini də qaldırmaz!
- Nə yaxşı!
- Bunun harası yaxşıdır?

Çatan kimi xətkeşlə adamın düz başından vurur!

Məktəbə gəlmiş komissiya riyaziyyat otağının qarşısından keçir. İçəridən möhkəm səs-küy gəlir. Komissiya sədri soruşur:

- Bu nə səs-küydür?

Direktor vəziyyətdən belə çıxır:

- Yəqin nəyi isə bölürlər, bölə bilmirlər!

- Kim deyər, yaxşı şagirdlə pis şagirdin nə fərqi var?
- Yaxşını uşaqlar döyür, pisi valideynləri!

Müəllim:

- Fikrət, sayıram. Gör dediyim sözlərdən hansı artıqdır: kartof, soğan, kələm, mersedes, nar?
- Kartof, soğan, kələm, nar.



- Rasim, dərsə niyə gecikmisən? İzahat yaz!

Rasim izahatı yazdıqca, müəllim başı üstündə dayanıb onun yazdığını oxuyur və əsəbləşir. Rasimin izahatı: "Havalar soyuyub. Yağış yavaş-yavaş pəncərəni döyür. Elə havada isti ədyala bürünüb yatmaq çox ləzzətli olur. Doyunca yatandan sonra qalxıb televizora baxa-baxa yemək yeyirsən. Yeyəndən sonra yenə yuxun gəlir, yatırsan...".





- Məktəbin şüşəsini sındırmışdın, direktor hirslənmişdi, sonra nə oldu?

- Direktor dizi üstə imakləyə-imakləyə yanıma gəldi.

- Doğrudan?

- Həəə! Gəlib dedi, düş çardaqdan, sənə heç nə eləməyəcik!



İmtahan gedir. Professor soruşur:

- Kim imtahana əla hazırlaşıb?

Hamı susur. Professor yenə soruşur:

- Bəs kim imtahana yaxşı hazırlaşıb?

Bir neçə nəfər əl qaldırır. Professor onlara "yaxşı" qiymət yazır. Sonra təzədən soruşur:

- Kim "kafi" qiymətə hazırlaşıb?

Professor əl qaldıranlara "kafi" yazandan sonra deyir:

- Qalanlarınız "iki" alırsız. Sonra gəlib imtahan verərsiz.

- Nə vaxt, müəllim?

- İstəyirsiz elə indi!

- İstəyirik!

Sonra qalanları imtahan verib hamısı əla qiymət alır.



Məmməd Londondan qayıdır. Qayıdanda sinif yoldaşları ondan soruşurlar:

- Danış, nə gördün?

- Londonlular yaman savadlıdırlar!

- Hardan bildin?

- Hətta üç yaşlı uşaq da ingiliscə təmiz danışır.





Müəllim:

- Belə oxusan, tezliklə atanın saçları ağaracaq!

- Uraaa, atam daha keçəl olmayacaq!



- Bax, düzünü de, ev tapşırığını kim eləyib?

- Müəllimə, vallah-billah, xəbərim yoxdu, axşam tez yatmışam!

Müəllimə:

- Adın nədir?
- Orxan.
- Atanın adı nədir?
- Ata.
- Başqa adı yoxdur?
- Biz üç qardaş "ata" deyirik, başqaları "Əhməd" deyir.
- De, "Əhməd" də...
- Axı Əhməd deyəndə atam əsəbləşir...



- Direktor, mənə çox savadsız sinif düşüb! Teoremi bir dəfə başa salıram, heç kəs başa düşmür, iki dəfə başa salıram, heç kəs başa düşmür, üçüncü dəfə başa salıram, özüm başa düşürəm, amma yenə heç kəs başa düşmür!..

- Dərsə niyə getməmisən?
- Bürcüm göstərir ki, bu həftə qiymətlərimin hamısı əla olacaq. Bilirəm dərsə getsəm, iki alacağam. Yaxşısı budur evdə gözləyim.

- Ev tapşırığın hardadı, qızım?
- Ev tapşırığıdı deyə, evdə qoyub gəldim, müəllim.



Müəllimə:

- Dərsə niyə gecikmisən?
- Gələndə quldurlara rast gəldim, məni əməlli-başlı soydular.
- Aman Allah, sənə neylədilər?
- Ev tapşırığı dəftərimi əlimdən aldılar!

Sərxan imtahanlarda sualların cavablarını köynəyinin qollarına yazıb, yaxşı qiymət alırdı. Fizika imtahanından sonra dostu soruşur:

- İmtahandan qiymət ala bildin?
- Yox!
- Niyə?
- Səhər tələsdiyimdən, fizika köynəyi əvəzinə, çaşıb tarix köynəyimi geyinmişəm.



# Sistem necə işləyir?



Birinci sinif şagirdlərinə müəllimə başa salır:

- Uşaqlar, siz dərsə gəlmisiz. Dərsdə sakit oturmaq lazımdır. Əgər nə isə soruşmaq istəyirsinizsə, əlinizi qaldırı

Bir oğlan əlini qaldırır.

- Nəsə soruşmaq istəyirsən?
- Yox, sadəcə, yoxlamaq istəyirəm, sistem necə işləyir?



- Bu hərfin adı nədir?
- Hərfi tanıyıram, amma adını bilmirəm.



Kamal və Camal birinci sinifdə oxuyurlar. Bir gün öz aralarında bəzi tərəvəzlərin xeyrindən danışırlar. Kamal:

- Kök yeməyin gözlərə çox faydası var.

Camal:

- Hardan bilirsən?
- Sən heç eynək taxan dovşan görmüsən?!



Birinci dərsdə müəllim:

- Məktəb hamımızın evidir, uşaqlar!

Sonuncu dərsdə müəllim:

- Düz oturun, evdə deyilsiz!



İmtahandan sonra şagird:

- Müəllim, öz aramızda qalsın, mən imtahana hazırlaşmamışdım. Partamda yapon hərfləri ilə yazılmış penal var idi. O, şparqalka idi.

- Hardan bilirsən yapon dilini?

- Hər gecə yapon dilini öyrənirdim ki, imtahana şparqalka hazırlayım.

- Səncə riyaziyyatı öyrənmək daha asan olmazdı?

- Öyrənmək istədim, nəsə yapon dili daha asan gəldi.







Dörd uşaq imtahana gecikir. Səbəbini belə izah edirlər:

- Müəllim, dördümüz də eyni avtobusda gəlirdik, təkər partladı, sürücü onu yamatdırana qədər çox vaxt keçdi, ona görə gecikdik.

- Eybi yoxdur, narahat olmayın!

Belə deyib müəllim onlardan ayrıca imtahan götürür. Hərəsini ayrı bir küncdə oturdur. Qarşılarına da test sualı qoyur. Testdə bir sual olur: "Maşının hansı təkəri partlamışdı?".



Müəllim Tapdıqdan soruşur:

- İnsan aclığa nə qədər dayana bilər?

- Ölənə qədər!



Məktəbin uşaqlarını simfonik konsertə aparırlar. Yanında oturan bir uşaq Əlidən soruşur:

- Görəsən Baxdır, yoxsa Bethoven?

Əli özünü bilən kimi göstərir:

- Nə bilim, tanımadım, arxası bizə dayanıb!

Müəllim:

- Bu nədir yazmısan, Səlim, oxu yazdığını!

- "Canavar yerə yıxıldı və güllə canavara dəydi!".

- Mən dedim: "Güllə canavara dəydi və canavar yerə yıxıldı!".

- Müəllim:

- Ayaz, Hindistan daha uzaqdadır, yoxsa Ay?

- Hindistan.

- Bunu necə sübut edərsən?

- Gecələr Ayı görə bilirik. Hindistanı heç vaxt görmürük

- Murad, deyə bilərsən, Kolumb Amerikanı necə kəşf edib?

- Kolumb gedəndə bilmirdi hara gedir. Qayıdanda bilmirdi ki, hardan qayıdır.

- Ata, sabah məktəbdə kiçik bir valideyn iclası var. Vaxtın olar, gəlməyə?

- Vaxt tapmağına taparam, amma başa düşə bilmirəm, kiçik valideyn iclası necə olur?

- Kiçik valideyn iclasında sən, mən və sinif rəhbərimiz olur.



- "Alma" sözünü cümlədə işlət!

- Səhər-səhər hələ bizimkilər oyanmamışdı, almanlar qəfildən hücuma keçdi!

Müəllimə məktəbdə özünü pis aparan şagirdinin evinə gəlir. Qapını şagird özü açır. Müəllimə soruşur:

- Anan evdə?

- Yox, hələ gəlməyib.

- Bəs atan?

- O da gizlənib.



Bir qoca qadın hərbi komissarlığa gəlib deyir:
- Mənə də medal verin, müharibədə olmuşam!
- Hansı hissədə?
- Hissə-zad bilmirəm, əsgərlərə çörək, pendir, kolbasa aparırdım, onlar da mənə "danke-danke", deyirdilər!
- Qoca nənə, nə qədər ki səni vətən xaini kimi həbs eləməyiblər, get!



Bir əsgər belində tüfəng növbə çəkir. Qaranlıqda qarşıdan gələn birini görüb soruşur:
- Parolu de:
- Rədd ol burdan!
- Çox qəribədir ki, iki ildi xidmətdəyəm parol hələ də dəyişməyib.



- Şah İsmayıl taxta çıxan kimi neylədi, kim deyər?
- Oturdu, müəllim!



- Uşaqlar, bu il tarixdən tanıdıqlarınızdan ən çox kim sizə təsir edib? Yadınızda kim qalıb?
- Napaleon!
- Hitler!
- Stalin!
- Mənim isə atam qalıb! O, rüblük qiymətlərimi görəndə elə hala düşdü ki, ömrümdə yadımdan çıxmaz!



Böyük Vətən Müharibəsindən sonra, sentyabrın 1-i hamı məktəbə gəlir. Uşaqlar müharibədə elədikləri köməklikdən danışırlar. Şagirdlərdən biri:
- Mən əsgərlərə silah daşıyırdım!
- Əla! Onlar sənə nə deyirdilər?
- Qud, qud, boldemax.



Tarix dərsində müəllimə Orxana deyir:
- Mənə yüz il bundan əvvəl olmayan bir şey de.
- Məsələn, mən yoxuydum.
Müəllimə gülür:
- Sənin olmadığını bilirəm, başqa bir şey de.
- Məsələn, o vaxt siz də yox idiniz!

Müəllim:
- Qanuni Sultan Süleyman hansı səfərində öldü?
İlkin:
- Son səfərində!



- Böyüyəndə universitetdə oxumaq istəyirsən?
Seymur qaşqabağını tökür:
- Yox, amma anam istəyir.
- Niyə istəmirsən?
- Deyirlər orda adamı kəsirlər!



Müasir dövrdə sehrli dərviş parkda gəzəndə ağlamaq səsi eşidir. Görür köhnə paltarlı bir kişi küncdə oturub zü-lüm-zülüm ağlayır. Soruşur:

- Niyə ağlayırsan?
- Necə ağlamayım, kasıbçılıq məni bezdirib!

Dərviş dua oxuyur, kəndlinin ayağı altına bir qızıl düşü

Dərviş ikinci dəfə ağlayan uşağa rast gəlir. Soruşur:

- Niyə ağlayırsan?
- Böyüyüb özüm parka gəlmək istəyirəm, atam az min-dirir karuselə!
- Bundan asan nə var ki? - Deyib dərviş oğlanı 15 yaşlı yeniyetmə eləyir.

Sonra qarşısına ağlayan bir qadın çıxır.

- Sən niyə ağlayırsan?
- Məktəbdə müəllimə işləyirəm, yuxarı siniflərə dərs deyirəm.

Dərviş bunu eşidən kimi oturur müəllimənin yanında zülüm-zülüm ağlayır.



Professor:

- Utanmayın, sual verin! Ağılsız sual olmur!
- Hörmətli professor, mən iki ayaqlarımla relsin üstündə dursam, əllərimlə cərəyandan tutsam, tramvay kimi gedə bilərəm?
- Deyəsən yanılmışam, ağılsız sual olurmuş!



Belə bir məsələ müzakirə edilir: "Niyə uşaqlar yalan danışır?". Günahkarlar tapılır, səbəb açıqlanır: "Evdə və məktəbdə uşaqlara həddindən çox sual verilir!".



Ata:

- Oğlum, bu gün dərslərindən neçə qiymət almısan?
- Altı!
- Bu, necə olur?
- Riyaziyyat - 2, ana dili - 2, rəsm - 2!



- Atan ad gününə sənə nə hədiyyə elədi?
- Raqatka!

Müəllimə gülümsəyəndə, Məmməd deyir:

- Zarafat eləmirəm, müəllimə! Atam bütün qəsəbədə yeganə şüşəsalandır!



Dərslər yenicə başlayıb. İbtidai sinif müəllimi evə gedəndə bütün şagirdlərinə kağız verib deyir:

- Bunu valideynlərinizə verərsiniz!

Kağızda yazılır: "Söz verin ki, uşağınız məktəbdə olanlardan danışanda heç vaxt ona inanmayacaqsız! Mən də söz verirəm onlar evdə olanlardan danışanda inanmayacam!".





- Uşaqlar, ən çox hansı aylardan xoşunuz gəlir?

Uşaqlar xorla:

- İyun, iyul, avqust!



- Ən çox xoşuna gələn məktəb hansıdır?
- Bağlı məktəb!



Uşaqları məktəbdən teatra aparırlar. Bir uşaq dostunu silkələyir:

- Bax, arxadakı qız yatıb.
- Yatsın da, bundan ötrü məni niyə oyadırsan?

Tamaşanın axırına qədər qız fasiləsiz danışır, nişanlısı da ona qulaq asır. Tamaşa qurtaranda arxadan bir qadın qıza irad tutur:

- O qədər danışdın ki, heç nə eşidə bilmədik!
- Bizim söhbətimizin sizə heç bir aidiyyatı yox idi. Yavaş danışırdım ki, heç kəs eşitməsin! Niyə başqasının söhbətinə qulaq asırsız?





Uşaq Filarmoniyasında ana müəllimədən soruşur:

- Necə fikirləşirsiz, qızım Aysu müğənni olsa yaxşı olar, yoxsa rəqqasə?
- Məncə ondan yaxşı rəqqasə olar!
- Yəqin onun rəqs eləməyini görmüsüz.
- Yox, oxumağını eşitmişəm!

Burnu qanayan uşaq evə gəlir. Anası həyəcanla səbəbini soruşur. Uşaq:

- Məktəbə sehrbaz gəldi. Burnumdan üç dənə dəmir əlli qəpik çıxartdı.

Ana:

- Oğlum, sehrbaz göz aldadır. Burun qanatmır.

Uşaq:

- Burnumu sehrbaz qanatmadı. Başqa pul qalıb-qalmadığını yoxlayan dostum qanatdı.

- Baba, gəl sirk-sirk oynayaq!
- Oynayaq!
- Onda sən kloun ol, mən də tamaşaçı!

- Oğlum, riyaziyyatdan vəziyyət necədi? Bu gün neçə almısan?
- Belə də, pis deyil. 8-2-4 aldım!

Məktəbə niyə gecikmisən?

- Atamla balıq tutmağa getmək istəyirdim, aparmadı.
- Düz elədi! Yəqin, sənə səbəbini də başa saldı.
- Hə, dedi soxulcan azdı, ikimizə çatmaz.

- Dəvəquşular yumurtlayır, atdan bərk qaçır, təhlükə zamanı başlarını torpağa soxurlar. Əlişov, sən orda neyləyirsən?
- Sizə diqqətlə qulaq asıram!
- Elə isə təkrar elə dediyimi!
- Dəvəquşular yumurtalarını torpaqda basdırır. Atlar onların yumurtalarını tapdalayanda, təhlükə baş verir, onda dəvəquşular torpağın altına girirlər!

Müəllim dərsə gecikən şagirddən soruşur:

- Niyə gecikmisən?
- Dayanacaqda bir qadın 50 manatını yerə salmışdı.
- Afərin, yəqin ona pulunu tapmaqda kömək elədin.
- Yox, pulun üstündə dayanmışdım, gözləyirdim qadın çıxıb getsin.

Müəllim:

- "Xoşbəxtlikdən" sözündən cümlə düzəlt.
- Quldurlar bir kişini öldürdülər. Xoşbəxtlikdən, kişi pulunu evdə qoymuşdu.



Uşaq valideynləri ilə rayondan gəlir ki, incəsənət məktəbində oxusun. Ata-ana uşağa kirayə ev tutub, yerləşdirib geri qayıdır.

Səhərisi gün uşaq anasına zəng vurub şikayətlənir:

- Mən bu evdə qala bilmərəm, gecə yarı qonşudan o qədər səs gəlir ki, baş qulağım gedir. Biri hönkürtü ilə ağlayır, biri sızıldayır, biri də fasiləsiz divarı döyür.
- Fikir vermə onlara, sən oxumağa getmisən! Dərslərinlə məşğul ol!
- Elə də eləyirəm, oturub oz nağaramda çalıram!



# Sizdə zəngli saat var?



Ana səhər oğlunu yuxudan oyadır:
- Qalx ayağa! Məktəbə gecikirsən!

Oğlu yorğan altından səslənir:
- Hara tələsirik axı, məktəb bütün günü açıqdır.



Satıcı:
- Bu konfet köhnədir, onu almayın!
- Verin, özümə almıram, müəlliməm göndərib məni, ona alıram.



Yuxudan çətinliklə oyanan şagird zəngli saat axtarır, axtarır, nəhayət, istədiyini bir mağazadan tapıb satıcıdan soruşur:
- Saatın işləmə qaydası necədir?

Satıcı:
- Saat əvvəl zəng vurur. Oyanmasan, uzun-uzadı zavod fiti çalır. Yenə oyanıb zəngli saatın düyməsini basmasan, üzünə soyuq su atır.

Yenə oyanmasan, içərisindən bir taxta çıxır, başının ortasından vurur!
- Bəs sonra?
- Sonra direktoruna zəng vurub başının yarıldığını xəbər verir!
- Alıram!



Balaca Aysel kassirə deyir:

- Siz dünən mənə pulun qalığını qaytaranda 10 manat səhv qaytarmısız.

- Sən onu mənə gərək dünən deyərdin, bu gün heç nə edə bilmərəm.

- Hə? Yaxşı, - Aysel sevincək razılaşır. - Onda artıq pulu özümə götürərəm.

Bir qoca apteka girib soruşur:

- Sizdə çörək olur?

- Yox, burda ancaq dərman satılır.

Bu, iki gün təkrar olanda müdir fikirləşir qoca yəqin huşunu itirib, xəstədir. Ona yazığı gəlir, mağazaya çörək qoyur ki, gələndə versin.

Qoca bir gün yenə apteka gəlir, amma bu dəfə pendir istəyir. Ona deyirlər:

- Pendir yoxdu, amma çörək varımızdı.

- Yox, çörək istəmirəm, ətrafımızdakı apteklərin hamısında çörək var!

Balaca oğlan oyuncaq mağazasına girib maşın seçir. Kassirə oyuncaq pul uzadır. Kassirin güldüyünü görəndə acıqlanır:

- Niyə gülürsüz?

- Bu, oyuncaq puldur!

- Maşın da oyuncaqdır da...



- Vaxt çox tez keçir. Yuxudan təzə oyanmışam. Amma artıq dərsə gecikdim.

Bir uşaq qəzet köşkündə satıcıya 20 qəpik verib deyir:

- Mənə bir "Sehrli Dünya" jurnalı, bir rəngləmə, rəngli qələm, bir şar, bir dənə də yük maşını verin!

Satıcı uşağı tanıdığından, onun xətrinə dəyməyib, bütün istədiklərini verir. Uşaq isə dayanıb gözləyir.

- Bəs niyə getmirsən?

- Pulun qalığını verin!



- Anam dedi bu dolçanı xama ilə doldursun.

Satıcı dolçanı xama ilə doldurub uşağa verir. Uşaq getmək istəyəndə soruşur:

- Xamanın pulunu vermirsən?
- Anam dedi, pul dolçanın dibindədi.

Ana xalça mağazasında satıcıdan soruşur:

- Mənə uşaq otağına salmağa keyfiyyətli, möhkəm bir şey lazımdır!
- Qız, yoxsa oğlan uşağı üçün? Bir də uşaqların sayını deyin, ölçüsünə görə qiymətini müəyyənləşdirək.
- Dörd oğlan uşağı üçün!
- Xanım, sizə asfalt döşəmə məsləhətdir!

Maskalılar supermarketi soyanda onlardan birinin maskası üzündən düşür.

Tez maskasını taxıb qışqırır:

- Üzümü kim gördü?

Biri nəfər "Mən!" deyən kimi həmin maskalı onu vurub yerə uzadır. Sonra qışqırır:

- Üzümü daha kim gördü?
- Mənim fizika müəllimim, Həsən müəllim!
- Hanı o?
- İndi dərsdədir. Yaxındakı məktəbdə, birinci mərtəbədə, fizika otağında!



Satıcının başı yanındakı rəfiqəsi ilə söhbətə qarışdığından bankaya süd əvəzinə, xama töküb balaca qıza verir. Qız deyir:

- Mən sizdən xama yox, süd istədim.

Satıcı dilxor-dilxor xamanı boşaldıb qabı təmiz yuyur, içinə süd töküb qıza verir. Qız bankanı satıcıdan alır. Sonra tələsmədən çantasından eyni ilə həmin bankadan birini də çıxarıb satıcıya verib deyir:

- Bura isə zəhmət olmasa, xama tökün...

- Ana, mənə bir manat ver, kasıb qocaya verəcəyəm.
- Ağıllı balam, hanı qoca?
- Bax orda, dondurma satır.



Mağazada bir nəfər satıcıya deyir:

- Mənə yun papaq verin!
- Buyurun!
- Mən yun papaq istədim, siz sintetik mal verirsiz. Üstündə yazılıb, "100 faiz sintetika!"
- İnanmayın, elə yazıb güvəquşularını aldadırıq!

Balaca uşaq dükançıya:

- Nə alıram çəkisini az verirsiz, uşaq bilib aldadırsız!
- Aparmaq asan olsun deyə, elə edirəm!

Uşaq pulu verib gedəndə dükançı deyir:

- Pulu niyə az verdin?
- Saymaq asan olsun deyə!

- Məmməd, dükançıdan 90 manatlıq mal aldıq. Ona 100 manat verdik. Dükançı neyləməlidir?
- Sevinməlidir!

Ata oğlunun pis qiymətlərini görüb hirslənir:

- Həyatə-zada düşmək yoxdur! Otur dərsini oxu!

Ata qəzet oxuyur. Qəzetdə yazılır: "Futbolçu Maradona 80 min dollar mükafat aldı." Ata qəzeti bir tərəfə atıb oğluna yenə hirslənir:

- Bəsdir oxudun, dur get futbol oyna!



- Dükançı dostuna şikayətlənir:
- Yanımda bir dükan açılmışdı, bu gün o biri tərəfimdə biri də açıldı, bilmirəm neyləyim?
- Qapının üstündə yaz: "Giriş burdandır".

Stadionda biri balaca oğlandan soruşur:

- Ay oğlan, sən belə yaxşı sıraya bileti hardan tapmısan?
- Atam alıb.
- Atan özü hardadır?
- Evdə, biletini axtarır...



# Nənəm elə bilir karaokedir...



Nənə "Skype"la danışıb qurtarandan sonra sevinir:

- Nə yaxşı şey imiş bu. Elə bil evində qonaq var, amma yemək-zad vermirsən.



- İlk insan nə vaxt yaranıb?
- Meymunlar çox işləyən zaman!





Nəzrin:

- Nənə, gəl "Titanik"ə baxaq!
- Yox, ay bala, ayağım düşmür, iki dəfə baxmışam, ikisində də gəmi batıb.



Televiziyaya məktub: "Xahiş edirəm seriallararası aşağıda verdiyiniz yazıları verməyəsiz. Nənəm elə bilir karaokedir, oxuyur."





- Sənə on konfet verirəm, yarısını qardaşına ver.
- Yaxşı!
- Verdin?
- Verdim!
- Neçəsini?
- Üçünü.
- Məgər sən 10-u 2-yə bölə bilmirsən?
- Bilirəm, amma o, bölə bilmir.



Balaca Orxan diqqətlə nağıla qulaq asır. Axırda nənə deyir:

- Görürsən, qoğal icazəsiz qaçır gedir meşəyə, tülkü onu yeyir.
- Sözə baxan da olsaydı, nənə ilə baba onu elə bişən kimi yeyəcəkdilər. Heç olmasa, meşəni gəzir, dünyanı görür...



- Həftə sonu hara getmişdin?
- Kəndə - nənəmin yanına!
- Necə oldu?
- Mənə aydın oldu ki, nəyə görə qoğal yumru olub və nəyə görə nənədən qaçıb?



- Mən balaca vaxtı çox ağıllıydım. Səkkiz aylığımdan gəzmişəm.
- Sən ona ağıllı olmaq deyirsən? Mən iki yaşıma qədər qucaqda gəzmişəm.



- Ana, deyəsən, nənənin yaddaşı pozulub!
- Niyə ki?
- Hər dəfə məni qapıda görən kimi deyir: "Baxın, görün, bizə kim gəlib?".



Əli çoxlu konfet yeyir. Yenə götürmək üçün əlini qaba uzadır. Nənə:

- Bəsdir, dişlərin xarab olar!
- Yemək istəmirəm, amma görürsən üstündə yazılıb "Ye məni!".

